# 110 yaşlı Şahbuz məktəbi



*Kənd məktəblərinin açılması haqqında «1874-cü il nizamnaməsi» və «1875-ci il təlimatı»na əsasən XIX əsrin sonlarında Naxçıvan qəzasında açılan məktəblərdən biri də bu il 110 yaşı tamam olacaq Şahbuz kənd məktəbidir. Bu məktəb 9 dekabr 1896-cı il tarixdə Şahbuz-Mahmudoba adı altında ikisinifli kənd məktəbi kimi açılmışdır.*

Məktəbin ilk ili 34 şagird, iki müəllimlə: Zamanbəyov Məmməd Fərzəli bəy oğlu-məktəbin nəzarətçi-müdiri (Qafqaz müəllimlər seminariyasını bitirmişdir) və Axundzadə Molla Möhsün şəriət müəllimi (Təbriz mədrəsə məktəbini bitirmişdir) ilə fəaliyyətə başlamışdır.

Sənədlərdən aydın olur ki, əvvəlki illərdə məktəb Bəhrəm xan Aman xan oğlu Naxçıvanskiyə məxsus binada yerləşmişdir.

Əlimizdə olan iki sənəd Bəhrəm xan Naxçıvanskinin xahişnaməsi və məktəbin nəzarətçisi M.Zamanbəyovun məktubudur.

Bəhrəm xan Naxçıvanski 15 mart 1900-cu il tarixdə İrəvan quberniya Xalq Məktəbləri müdirinə göndərdyi xahişnaməsində yazırdı: «Təqdim olunmuş müqaviləyə əsasən Naxçıvan qəzasının Şahbuz kəndində yerləşən mənə məxsus bina 1 sentyabr 1899-cu il tarixdən 200 manat müqabilində Şahbuz məktəbi üçün kirayə verilmişdir. Həmin puldan mən 160 manat almışam, qalanını isə indiyədək almamışam.

Bunları nəzərinizə çatdıraraq xahiş edirəm Şahbuz məktəbi üçün verilmiş binanın kirayə haqqının qalan 100 manatının ödənilməsinə sərəncam verəsiniz.

Bəhrəm xan Naxçıvanski (imza)».

Bu məsələ ilə bağlı 25 iyul 1900-cu il tarixdə məktəbin nəzarətçisi (müdiri) Məmməd Zamanbəyov İrəvan Quberniya Xalq Məktəblərinin müfəttişinə göndərdyi raportunda yazırdı: «Sizin 20 iyul tarixli tapşırığınıza əsasən bildirmək istəyirəm ki, mənə həvalə edilmiş məktəbin yerləşdiyi binanın sahibi Bəhrəm xan Naxçıvanskiyə ödəniləcək 200 manat kirayə haqqından 1899-cu ilin birinci yarısı üçün 100 manat Xalq Məktəbləri müdiriyyət tərəfindən ödənilib, 1899-cu ilin ikinci yarısı üçün isə kirayə haqqı tezliklə ona ödənilməlidir.

Məktəbin nəzarətçisi (imza): M.Zamanbəyov».

Bu sənədlərdən aydın olur ki, məktəb açıldığı gündən hər il müqavilə ilə məktəbin saxlanması üçün Bəhrəm xan Naxçıvanski ilə müqavilə bağlanmış və kirayə haqqı verilmişdir.

Şahbuz kənd məktəbinə 1902-1903-cü tədris ilində 26 nəfər şagird qəbul edilmiş, 50 nəfər şagird təhsil almışdır. Bu tədris ilində məktəbin I şöbəsində 32 nəfər, II şöbəsində 6 nəfər, III şöbəsində 6 nəfər, IV şöbəsində 6 nəfər şagird təhsil almışdır. I şöbədə: Əli Abdullayev, Əzim Hacıyev, Abbas Rüstəmov, Qurban Bayramov, Məsum Sadıxov, Rəsul Rəsulov, Rüstəm Rüstəmov və başqaları, II-ci şöbədə: Əli Əliyev, Əsgər Babayev, Əsəd Əliyarov, Həbib Bədəlxanov, Rüstəm Həsənəov və başqaları, III şöbədə: Əbdülrəhman Əbdülrəhmanov, Ağalar Xəlilov, Musa Axundzadə, Nəcəf Nəcəfov, Bayramqulu Bayramquliyev, Temur Zamanbəyov və IV şöbədə: Zeynalabdin Qurbanov, İrzaqulu Alməmmədov, Nurməmməd Piriyev, Qəmbər Abdullayev, Sadıx Xəlilov və Muxtar Cəfərquliyev təhsil almışdır.

1903-cü ildə məktəbin kitabxanasında 198 adda 455 kitab olmuşdur ki, bu kitabların 165-i dərs vəsaitləri idi.

1904-1905-ci tədris ilində artıq məktəbdə 4 müəllim çalışırdı. Əlavə iki müəllim V.İsgəndərov və Heydər Zamanbəyov olmuşdur.

1904-1905-ci tədris ilində məktəbin I-ci şöbəsində 28 nəfər, II şöbəsində 10 nəfər, III şöbəsində 8 nəfər, IV şöbəsində 4 nəfər şagird təhsil almış və 4 nəfər məktəbi bitirmişir. Məktəbi

bitirən şagirdlər: Qənbər Abdullayev, Muxtar Cəfərquliyev, Nurməmməd Piriyev və Sadıx Xəlilov idi.

O dövrün maraqlı sənədlərindən biri, məktəbin şəriət dərslərini deyən Molla Möhsün Axundzadənin ailəsinin çoxluğu ilə əlaqədar olaraq aldığı əmək haqqının qaldırılması haqqında 7 yanvar 1907-ci il tarixdə Şahbuz kənd məktəbinin müdirinə yazdığı xahişnaməsidir. Molla Möhsün Axundzadə xahişnaməsində yazırdı: «Sizə məlum olduğu kimi 1896-cı ildə Şahbuz-Mahmudoba məktəbi açıldıqdan bəri mən həmin məktəbdə qanun (şəriət) müəllimi vəzifəsini daşıyıram və ildə 100 manat məvacib alıram. Həmin məvaciblə mən indiyədək kifayətlənmişəm. İndi isə mənim böyük ailəm olduğundan və buğdanın qiyməti qalxdığından mən Siz rəhbərlikdən xahiş edirəm ki, məvacibim 150 manata qaldırılsın. Əgər bu mümkün deyilsə onda xahiş edirəm məni işdən azad edəsiniz, çünki mən eyni vaxtda həm ailəmin dolandırılması, həm də şagirdlərin müvəffəqiyyəti haqda düşünə bilmirəm.

Molla Möhsün Axundzadə (imza)».

1908-1909-cu tədris ilində məktəbdə 54 şagird, 1909-1910-cu tədris ilində isə 60 şagird təhsil almışdır.

Maraqlı sənədlərdən biri də Naxçıvan xanlarından biri olan Cəfərqulu xan Kərbalı (2-ci) xan oğlu Naxçıvanskinin Şahbuz kənd məktəbində təhsil alan şagirdlərə məktəb ləvazimatları hədiyyə verilməsi haqqında məktəb müdiri Abbasqulu bəy Kəngərlinin (1909-cu ildən 1913-cü ilə kimi məktəbin nəzarətçisi-müdiri işləmişdir) 2 dekabr 1909-cu il tarixli və 12 yanvar 1910-cu il tarixli İrəvan quberniyası Xalq Məktəbləri müfəttişliyinə göndərdiyi raportudur. A.Kəngərli raportunda yazırdı: «Bu günkü (23 dekabrda – F.C)» tarixdə Cəfərqulu xan Naxçıvanski mənə həvalə edilmiş məktəbin şagirdlərinə 9 manat məbləğində məktəb ləvazimatları hədiyyə edib.

Bunları Sizin nəzərinizə çatdıraraq xahiş edirəm ki, yüksək rəhbərlik tərəfindən ona, Naxçıvanskiyə təşəkkür elan olunsun.

Məktəbin nəzarətçisi (imza)».

O raportun ardınca 12 yanvar 1910-cu il tarixində göndərdiyi məktubunda isə hədiyyə verilmiş 78 nəfər şagirdin adının siyahısını da göndərmişdir. Siyahıda iki nəfər qızın: Zərnişan xanım Kəngərlinski və Zəhra Seyidovanın da adı var idi. Deməli 1909-1910-cu illərdə məktəbdə qızlar da təhsil almağa başlamışdılar.

1910-1911-ci tədris ilində məktəbdə 78 şagird təhsil almış və məktəbi 7 nəfər bitirmişdir.

Yarandığı gündən 1920-ci illərə kimi Şahbuz kənd məktəbində ətraf kəndlərin: Qarababa, Arınc, Mahmudoba (1920-ci ilə kimi), Daylaqlı və s. kənd əhalisinin uşaqları Naxçıvan qəzasının mərkəz kəndlərindən sayılan Şahbuz kənd məktəbində təhsil almışlar.

1910-1914-cü tədris ilində məktəbin I şöbəsində: İmamquliyev Dadaş, Başramov Salman, Kəngərlinski Şəmsəddin, Seyid Mir İbrahim, Zeynalabdinov Mahmud, Rüstəmov İslam, Sadıxov Əziz, Maharov Mahmud, Qənbərov İsa, Nəbiyev Həbib, Rüstəmov İsa, Hüseynov Teymur, Cəfərov Fərhad, Bağırov Məmmədəli, Rüstəmov İsmayıl, Rüstəmov Kazım təhsil almışdır.

1918-1920-ci illərdə Naxçıvan bölgəsinin digər kənd məktəbləri kimi Şahbuz kənd məktəbində də dərslər mütəmadi keçirilməmiş və demək olar ki, bağlanmışdır.

Naxçıvanda Sovet hakimiyyəti qurulduqdan sonra (28 iyul 1920-ci il) yaranmış Naxçıvan ölkə İnqilab Komitəsinin bir çox şöbələri ilə yanaşı maarif şöbəsi də yaranmışdır ki, həmin şöbə 1921-ci ildə Xalq Maarif Komissarlığına çevrilmiş və Naxçıvanda 1918-1920-ci illərdə mövcud olan dağılmış və ləğv edilmiş məktəblərin bərpası, şagirdlərin məktəbə cəlbi və müəllim kadrlarının səfərbər edilməsi maarif komissarı Ə.Rüstəmova tapşırılmışdır.

Xalq Maarif Komissarlığının səyi ilə 20-ci illərin əvvəllərində Şahbuz rayonunda mövcud olan məktəblər yenidən bərpa olunaraq fəaliyyətə başlayır. Fəaliyyətə başlayan məktəblərdən biri də Şahbuz kənd məktəbi idi.

Məktəbin yenidən açıldığı dövrdə ilk direktoru Mirzə Məmməd Zamanov olmuşdur, 1923-1924-cü tədris ilindən bu vəzifədə Qori müəllimlər seminariyasının məzunu Sadıq Xəlilov işləmişdir.

1927-1928-ci tədris ilində 1-ci dərəcəli natamam oğlan məktəbi kimi üç qrup üzrə 39 şagird təhsil almışdır. Məktəbdə iki dərnək: dram və əl işi dərnəyi fəaliyyət göstərmişdir. 1929-1930-cu tədris ilində məktəbdə 4 qrup üzrə 72 şagird təhsil almışdır ki, bundan I qrupda 24, II qrupda 25, III qrupda 13 və dördüncü qrupda 9 şagird olmuşdur. I qrupda 25 şa-





girdin 6-sı qız idi.

1937-1938-ci tədris ilində Şahbuz kənd natamam orta məktəbi orta məktəbə çevrilmişdir. 1938-1939-cu tədris ilində məktəbdə I-IX siniflər üzrə 282 şagird təhsil almışdır ki, bunun 8 nəfəri qız idi. Bu şagirdlərin təlim-tərbiyəsi ilə 8 müəllim məşğul olmuşdur. Məktəbin direktoru Hüseynəli Bağırov, müəllimlər Əli Nəcəfov, Həsən Həsənov, Yadulla Kərimov, Əhəd Quliyev, Ramazan İmanov və Maarif Xudiyev olmuşdur.

1939-1940-cı dərs ilində məktəbin ilk buraxılışı olmuşdur. Həmin il məktəbdə 298 şagird təhsil almış və 17 şagird məktəbi bitirərək kamal atestatı almışdır. Bu illərdə məktəbin kitabxanasında olan 1055 adda kitab şagirdlərin istifadəsinə verilmişdir.

1940-1941-ci dərs ilində məktəbdə 222 şagird təhsil alırdı ki, bunlardan da 95 nəfəri qız idi.

Böyük Vətən müharibəsinin acı nəticələri muxtar respublikanın başqa məktəbləri kimi Şahbuz kənd məktəbinə də təsir etmiş, nəticədə 30-cu illərə nisbətən müharibə illərində təhsil alan şagirdlərin sayı azalmışdır (bunun əsas səbəbi yeniyetmə əhalinin çox hissəsinin kolxoz və başqa sahələrdə işləməyə getməsi olmuşdur – F.C.).

Əgər 1943-1944-cü dərs ilində məktəbdə 180 nəfər şagird, o cümlədən 31 nəfər qız təhsil almışdırsa, 1944-1945-ci tədris ilində 140 nəfər şagird təhsil almışdır ki, bunun da 71 nəfəri qız olmuşdur. Şagirdlərin təlim-tərbiyəsi ilə Həsənov Həsən, Rzayev İsa, Qasımova Güllü, Novruzova Bəsdi, Rüstəmov Murad, Azayev İsa və Tarıverdiyev Musa məşğul olmuşdular. Kişi müəllimlərin məktəbdən azalmasına səbəb onların bir çoxunun müharibəyə getməsi idi.

1948-ci ildə məktəbi 5 nəfər: Fərzəliyeva Mələykə, Novruzova Şərqiyyə, Bağırov Zeynal, Quliyev İbrahim və Haqverdiyev İman bitirmişdir. 1949-cu ildə məktəbi 21 nəfər, 1950-ci ildə isə 26 nəfər bitirmişdir.

1954-1955-ci tədris ilində məktəb yenidən natamam orta məktəbə çevrilmişdir. (nə səbəbdən məlum deyil – F.C.).

1955-1956-cı dərs ilində məktəbdə 115 şagird təhsil almışdır, bunlardan 54 nəfəri qız, 1956-1957-ci dərs ilində 92 şagird, bunlardan 52 nəfəri qız, 1958-1959-cu dərs ilində 78 şagird, bunlardan 43 nəfəri qız, 1959-1960-cı dərs ilində 83 şagird, bunlardan 45 nəfər qız və. nəhayət 1960-1961-ci dərs ilində isə 93 şagird, bunlardan 43 nəfər qız təhsil almışdılar.

60-cı illərə nisbətən 70-80-ci illərdə məktəbdə təhsil alan şagirdlərin sayı artmağa başlamışdır.

1972-1973-cü tədris ilində məktəb yenidən orta məktəbə çevrilmişdir. 1972-1973-cü dərs ilində 235 şagird, 1973-1974-cü dərs ilində 262 şagird, 1975-1976-cı dərs ilində 259 şagird, 1977-1978-ci dərs ilində 273 şagird, 1980-1981-ci dərs ilində 227 şagird, 1981-1982-ci dərs ilində 242 şagird, 1985-1986-cı dərs ilində 210 şagird, 1986-1987-ci dərs ilində 190 şagird və 1988-1989-cu dərs ilində 199 şagird təhsil almışdır.

1989-1990-cı dərs ilində Şahbuz kənd orta məktəbinin kitabxanasına 5860, o cümlədən 46000 dərs kitabı verilmişdir.

1991-1992-ci dərs ilində məktəbdə 211 şagird təhsil almışdır, bunlardan 90 nəfəri qız, 1992-1993-cü dərs ilində 220 şagird, bunlardan 94 qız, 1994-1995-ci dərs ilində 214 şagird, bunlardan 108 qız, 1995-1996-cı dərs ilində 228 şagird, bunlardan 120 qız, 1998-1999-cu dərs ilində 232 şagird, bunlardan 121 qız, 1999-2000-ci dərs ilində 261 şagird təhsil almış və bu şagirdlərin təlim-tərbiyəsi ilə 43 müəllim məşğul olmuşdur.

Məktəbin ilk illərində direktor və müəllim olmuş Mirzə Sadıq Xəlilovun adını daşıyan, bu ilin dekabr ayında 110 yaşı olacaq Şahbuz kənd orta məktəbində hazırda 190 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 36 ali təhsilli müəllim məşğul olur ki, bunun da 16-sı qadındır.

110 ildə məktəbin məzunları arasından çoxlu tanınmış elm və mədəniyyət, incəsənət xadimləri və əmək qəhrəmanları çıxmışdır. Xalq şairi Məmməd Araz, dilçi alim Firudin Hüseynov, Azərbaycan Respublikasının Əməkdar rəssamı Yaşar Səfərov, tibb elmləri doktoru Şəmsi Əsədov, şair Məmməd İbrahimov, biologiya elmləri namizədi İbrahim Rüstəmov, Sosialist Əməyi Qəhrəmanı Fatma İmamquliyeva, həkim Muxtar Qurbanov, Səyyarə Quliyeva, Məhəmmədəli Quliyev, Sadıq Xəlilov, Xanımzər Ağayeva və başqa ziyalılar bu təhsil ocağının yetirmələri olub.

**Fəxrəddin CƏFƏROV,**
**əməkdar mədəniyyət işçisi,**
**tarix elmləri namizədi**